# KITAB ELMINI BILƏN ŞƏXSIN ŞƏHADƏTI

<"xml encoding="UTF-8?>

KITAB ELMINI BILƏN ŞƏXSIN ŞƏHADƏTI

Quranı- kərimin Peyğəmbərlərin sonuncusunun Peyğəmbərliyinə olan üçüncü dəlili elə bir şəxsin şəhadətidir ki, onun şəhadəti mütəal Allahın şəhadəti kimi, ağıl və vicdan məhkəməsində bu Peyğəmbərin sədaqətini isbata yetirmək üçün .kifayətdir

:Quran belə bir şəxsi iki ünvanla tanıtdırmışdır

".Onun biri "Kitab elmi onun yanındadır

Ya Rəsulum!) Kafirlər: "Sən peyğəmbər deyilsən!" - deyirlər. (Onlara) belə cavab)" ver: "Mənimlə sizin aranızda (doğruluğuma) Allahın və kitabı bilənl şəxsin şahid [olması yetər!"[1

"İkinci isə, "Onun özünkülərdən bir şahid

Məgər Rəbbindən açıq-aydın bir dəlilə (Qurana) istinad edən, ardınca Allahdan" bir şahid gələn, ondan da əvvəl Musanın (öz ümməti üçün) bir rəhbər və mərhmət olan kitabının (Tövratın) təsdiq etdiyi kimsə (dünyaya meyl edənlər, ona bel [bağlayanlar kimi ola bilərmi)?"[2

Hər iki firqənin (Şiə və Sünnü) mötəbər mənbələrinə əsasən olan rəvayətlərdə gəlmişdir ki, bu ayələrdə gələn (Şahid) və (kitab elmini bilən şəxs) Əmirəlmöminin [Əli ibn Əbutalib (ə)- dır.[3

Doğrudur, əgər bir şəxs o imamın elmi,[4] əxlaqı[5] və əməli[6] xüsusiyyətləri ilə tanış ola, bilər ki o şəxs hesabsız söz danışmır və haqqdan başqa bir şey dilinə .gəlmir

Bu cəhətdən İmam Əli (ə)- ın şəhadəti Allah Taalanın şəhadətinin kənarında sonuncu Peyğəmbərin nübüvvətinə açıq- aşkar bir sənəd olacaqdır. Həmçinin İmam Əli (ə) kimi dahi və görkəmli bir şəxsiyyətin o həzrətə böyük və sonuncu .Peyğəmbər kimi itaət etməsi, onun sədaqət və risalətinə kifayət edir

Qeyd etmək lazımdır ki, İmam Əli (ə) Peyğəmbər (s)- dən sonra ümmətin ən elmli şəxsidir və Peyğəmbərdən (s) sonra ümmət içində Quranı ən mükəmməl bilən şəxsdir.Elə buna görə də, Allah və onun Peyğəmbərindən sonra Peyğəmbərin risalətinə şəhadət verən ən böyük şəxsdir. Eyni zamanda bu ayələr digər imamlara da tətbiq ola bilir və onların burada Əmirəlmömininə aid olması digər imamlara tətbiq olması ilə heç bir ziddiyyəti yoxdur. Hər kəs Quranı- kərimlə həqiqi tanışlığı .olarsa, o Peyğəmbərin (s) sədaqət və risalətinin şahidi olacaqdır

---

Rəd surəsi ayə 43 – [1]

Husd surəsi, ayə 17 – [2]

.Daneşnameyi Əmirəlmömini, doqquzuncu bölmə, birinci fəsil, Əli Quran dilindən – [3]

.Daneşnameyi Əmirəlmöminin, onbirinci bölmə, İmam Əlinin (ə) elmləri – [4]

Daneşnameyi Əmirəlmöminin, onuncu bölmə, İmam Əlinin (ə) xüsusiyyətləri, ikinci fəsil – [5] əxlaqı xüsusiyyətləri

Daneşnameyi Əmirəlmöminin, üçüncü fəsil, imam Əli (ə)ın əməli xislətləri – [6]